**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A Tel.: (+994 12) 441 26 03 Faks: (+994 12) 493 06 95
www.health.gov.az e-poçt: office@health.gov.az

"03" fevral 2016-cı il № 7

**ƏMR**

**"Profilaktik peyvənd təqviminə poliomielit əleyhinə inaktivləşdirilmiş vaksinin daxil edilməsi barədə"**

Dünya Səhiyyə Assambleyasının 68.3-cü qətnaməsinə əsasən 2016-cı ilin aprel ayının 18-dən etibarən üç valentli oral poliomielit vaksini iki valentli oral poliomielit vaksini ilə əvəz ediləcəkdir.

Bununla əlaqədar uşaqlarda vəhşi poliovirusa qarşı dayanaqlı immunitetin yaradılması məqsədi ilə profilaktik peyvənd təqviminə inaktivləşdirilmiş peyvəndin daxil edilməsi barədə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-ci il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.16-cı bəndinə əsasən

**ƏMR EDİRƏM:**

1. Respublikanın səhiyyə idarə və müəssisələri tərəfindən uşaqların inaktivləşdirilmiş vaksinlə peyvənd olunmasına 2016-cı ilin 15 fevral tarixindən başlanılsın.

2. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

2.1. inaktivləşdirilmiş vaksininin tətbiqi və təhlükəsiz immunlaşdırma təcrübəsinə nəzarətin təmin edilməsi məqsədilə respublikanın şəhər və rayonlarında monitorinq keçirilsin;

2.2. cari ilin aprel ayının 18-də Dünya Səhiyyə Assambleyasının 68.3-cü qətnaməsini rəhbər tutaraq üç valentli oral poliomielit vaksininin iki valentli oral poliomielit vaksini ilə əvəz edilməsinə hazırlıq işlərinin həyata keçirilməsi məqsədilə müvafiq təşkilatı tədbirlər görülsün;

2.3. inaktivləşdirilmiş vaksininin tətbiqinə dair təbliğat materialların hazırlanması və respublikanın uşaq tibb müəssisələri arasında paylanması təmin edilsin.

3. Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinin rəisi İ.İsmayılovaya tapşırılsın ki, inaktivləşdirilmiş vaksinin tətbiqi ilə bağlı 5 nömrəli hesabat formasında müvafiq dəyişikliklər edilməsi üçün zəruri tədbirlər görülsün.

4. İnnovasiya və Təchizat Mərkəzinin direktoru R.Rüstəmbəyova tapşırılsın ki, immunlaşdırma tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuş peyvənd materiallarının yerlərə çatdırılması təmin edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**